# Aşıq Ələsgərin abidəsinin açılışı tarixi hadisədir

**Sentyabr ayının 30-da Azərbaycanın ictimai-mədəni həyatında son dərəcə əlamətdar hadisə baş vermişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin 2021-ci ildə imzaladığı Sərəncama əsasən el sənətkarı Aşıq Ələsgərin Bakıda ucaldılmış abidəsinin açılışı olmuşdur.**



**Novruzəli ASLANOV, Milli Məclisin deputatı.**

XIX əsrdə yaşayıb-yaratmış Aşıq Ələsgər Azərbaycan aşıq poeziyasının inkişafında xüsusi yer tutmuşdur. Aşıq şeirinin zənginləşməsində müstəsna rolu və xidməti olan qüdrətli sənətkar özündən sonra yetişən onlarca Azərbaycan aşığının yaradıcılığına müsbət təsir göstərmişdir.

Aşıq Ələsgərin abidəsinin açılışı münasibətilə keçirilən tədbirdə iştirak edən dövlətimizin başçısı çıxışında tarixi faktları xatırladaraq bildirmişdir ki, hələ 1970-ci illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin 150 illik yubileyi Sovet İttifaqı miqyasında təntənəli şəkildə qeyd edilmiş və yubiley münasibətilə aşığın doğma Ağkilsə kəndində abidəsi ucaldılmışdır. Təəssüflər olsun ki, 1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində, Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarından deportasiyası dövründə soydaşlarımıza məxsus bütün tarixi-mədəni və dini abidələrimiz kimi, Aşıq Ələsgərin abidəsi də ermənilər tərəfindən dağıdılmışdır. Lakin bu böyük sənətkarın yaradıcılığı Azərbaycan xalqının ürəyində elə dərin bir iz salmışdır ki, 200 il keçəndən sonra yenə də Aşıq Ələsgər öz millətini, Vətənini sevən insan kimi xalqımızın yaddaşında qalmışdır.

Dövlət başçısı Azərbaycan xalqının əyilməz ruha sahib olduğunu qeyd edərək bildirdi ki, bunun ən bariz nümunələrini biz bu gün Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. Həqiqətən də heç vaxt o torpaqlar olmamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlıların bu gün Qarabağa qayıdışları möhtəşəm mənzərədir. Dövlətimizin başçısı eyni mənzərəni bir gün Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyimizi vəd etdi. Prezident İlham Əliyevin indiyədək bütün vədlərinə əməl etdiyini xalqımız çox yaxşı bilir. Ölkəmizin suverenliyinin tam bərpa olunması Qərbi azərbaycanlılarda daha böyük nikbinlik hissləri aşılayıb. Lakin qarşıya qoyulmuş məqsədə nail olmaq üçün dövlət başçımızın dediyi kimi, strateji, taktiki, qısamüddətli, həm də uzunmüddətli hədəflər düzgün seçilməlidir. Çünki hədəflər düzgün seçilməsə, heç bir nəticə olmayacaq. Hədəflər həm həqiqəti və ədaləti, həm də real vəziyyəti və real gücümüzü əks etdirməlidir. ■

